

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 142 (21.803)

29 iyul 2017-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Ə.H.Əhmədovun Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsindən azad edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əhməd Hüseyn oğlu Əhmədov Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri vəzifəsindən azad edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 28 iyul 2017-ci il*

## Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib

***İyul ayının 28-də Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin Rəyasət Heyətinin iclası keçirilmişdir. İclasda 2017-ci ilin birinci yarısında muxtar respublika məhkəmələrinin fəaliyyətinin yekunları müzakirə olunmuşdur.***



İclası giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin sədri Ramiz Süleymanov məhkəmə fəaliyyətinin təkmilləşdirilməsi üzrə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan ardıcıl islahatlardan söhbət açmış, sonra cari ilin birinci yarısında muxtar respublikada ədalət mühakiməsinin həyata keçirilməsi vəziyyəti ilə bağlı məruzə etmişdir.

Muxtar respublika məhkəmələri tərəfindən vətəndaşların hüquq və azadlıqlarının təmin olunması sahəsində, habelə əhalinin hüquqi maarifləndirilməsi istiqamətində görülən işlər barədə məlumat verən Ali Məhkəmənin sədri bildirmişdir ki, əvvəlki illərdə olduğu kimi, bu ilin ötən dövründə də Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişaf etdirilməsi, məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi istiqamətində mühüm addımlar atılmış, məhkəmələrin fəaliyyətində yeni informasiya texnologiyalarının tətbiq olunması ilə bağlı bir sıra işlər həyata keçirilmiş, hakimlərin peşə bacarıqlarının artırılması, hakimlər tərəfindən ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı olaraq Avropa Məhkəməsinin presedent hüququnun öyrənilməsi, onların hüquqi biliklərinin daha da möhkəmləndirilməsi istiqamətində, eləcə də milli qanunvericiliyə edilən əlavə və dəyişikliklər barədə müntəzəm olaraq muxtar respublikada yaşayan əhali arasında hüquqi təbliğat və izahat işlərinin aparılması sahəsində bir sıra tədbirlər həyata keçirilmişdir.

Qeyd edilmişdir ki, qanunvericilik bazasının mütəmadi olaraq təkmilləşdirilməsi, məhkəmə orqanlarının yeni informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunması məhkəmə sisteminin daha da müasirləşdirilməsinə səbəb olmaqla yanaşı, ədalət mühakiməsinin tam, obyektiv və qərəzsiz aparılmasına, məhkəmə nöqsanlarının və işlərə baxılmasında gecikdirilmə hallarının aradan qaldırılmasına, məhkəmə qərarlarının vaxtında icra olunmasına, məhkəmə müdafiəsi hüququnun daha möhkəm şəkildə təmin edilməsinə şərait yaratmışdır.

Ali Məhkəmənin sədri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən imzalanan 2011-ci il 15 iyul tarixli "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Fərmandan irəli gələn vəzifələrin icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsində görülən işlərlə bağlı məlumat verib, məhkəmə qərarlarının axtarış sistemli vahid elektron bazasının təkmilləşdirilməsindən bəhs edib. Natiq Ali Məhkəmənin nəşri olan "Bülleten"in növbəti saylarının işıq üzü görməsindən və onun məhkəmənin rəsmi internet səhifəsində yayımlanmasından, məhkəmənin elektron kitabxana bazasının qanunvericilik aktları və yeni hüquq ədəbiyyatı ilə zənginləşdirilməsindən danışıb, həyata keçirilən tədbirlərin insan hüquq və azadlıqlarının təmin olunmasına yönəldildiyini bildirib.

Daha sonra muxtar respublikanın ixtisaslaşdırılmış məhkəmələrinin, şəhər və rayon məhkəmələrinin sədr və hakimlərinin 2017-ci ilin birinci yarısında gördükləri işlərə dair məlumatları dinlənilib.

Ramiz Süleymanov iclasa yekun vuraraq bildirib ki, Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi öz fəaliyyətini bundan sonra da qanunvericiliyin tələbləri səviyyəsində təşkil edərək ədalət mühakiməsini obyektiv, tam və qərəzsiz şəkildə həyata keçirəcək, vətəndaşların hüquqi maarifləndirilməsi işinin daha da gücləndirilməsi və əhalinin hüquq xidmətlərinə olan tələbatının ödənilməsi üçün səylərini davam etdirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

* * *



***Naxçıvan Muxtar Respublikası Prokurorluğunda beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasından irəli gələn vəzifələr və bu ilin birinci yarısında görülmüş işlərə dair kollegiya iclası keçirilib.***

İclasda Naxçıvan Muxtar Respublika prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev məruzə edərək bildirib ki, bu ilin ilk yarısında muxtar respublika Prokurorluğu digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə çalışaraq ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, vətəndaşların hüquq və azadlıqlarının müdafiəsi istiqamətində zəruri tədbirlərin görülməsinin təmin olunmasına səy göstərib. Hesabat dövründə həyata keçirilən zəruri profilaktik tədbirlər nəticəsində yetkinlik yaşına çatmayanlar, əvvəllər məhkum olunmuşlar, narkomanlar və sərxoşlar tərəfindən cinayət hadisələrinin törədilməsi halları qeydə alınmayıb.

"2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar mühüm tədbirlər həyata keçirilib, işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasına, istehsal müəssisələrində işçilərin əməyinin mühafizəsi qaydalarına riayət edilməsinə nəzarət gücləndirilib.

Vurğulanıb ki, muxtar respublika Prokurorluğu bundan sonra da hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə dövlətçiliyimizin maraqlarını, mövcud dayanıqlı ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, cinayətkarlığın bütün təzahürlərinə və hər cür qanunsuzluqlara qarşı mübarizənin gücləndirilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi üçün səlahiyyət hədləri daxilində bütün zəruri tədbirlərin görülməsini təmin edəcəkdir. Hesabat dövründə əldə edilən müsbət iş göstəricilərinin daha da möhkəmləndirilməsi və fəaliyyət istiqamətləri üzrə işin təkmilləşdirilməsi, xidməti və icra intizamının daha da yüksəldilməsi istiqamətində zəruri tədbirlərin görülməsinə bundan sonra da xüsusi diqqət yetiriləcəkdir.

Sonra məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasına yekun vuran Naxçıvan Muxtar Respublika prokuroru, II dərəcəli dövlət ədliyyə müşaviri Səbuhi Şahverdiyev ilin ikinci yarısında da cinayətkarlığa qarşı mübarizə, insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı müvafiq tabe struktur qurumlar qarşısında mühüm vəzifələr durduğunu bildirib, bu vəzifələrin yüksək keyfiyyətlə icrasının günün tələbi olduğunu deyib, fəaliyyətin səmərəliliyinin daha da artırılmasının vacibliyini qeyd edib.

**✍ Səbuhi HÜSEYNOV**

* * *



*Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsində keçirilən kollegiya iclasını giriş sözü ilə açan komitə sədri, gömrük xidməti general-leytenantı Asəf Məmmədov qeyd edib ki, gömrük xidmətinin modernləşməsi, yüksək iş və xidmət şəraitinin yaradılması istiqamətində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin inzibati binasında əsaslı təmir-bərpa və yenidənqurma işləri aparılıb. Hazırda Sədərək sərhəd-keçid məntəqəsi üçün 18 hektara yaxın ərazidə "bir dayanacaq" prinsipinə uyğun müasir gömrük kompleksi qurulur.*

Komitənin Maliyyə-tarif şöbəsinin rəisi, gömrük xidməti mayoru Rafael Əliyev qeyd edib ki, büdcənin formalaşdırılması istiqamətində 2017-ci ilin birinci yarımili üçün müəyyən olunmuş proqnoz-tapşırığa 100,38 faiz əməl olunub. Hesabat dövründə 43 ölkə ilə ticarət əməliyyatları aparılıb.

Bildirilib ki, idxaldan asılılığın azaldılması istiqamətində həyata keçirilən tədbirlər öz bəhrəsini verib. İxrac əməliyyatları, əsasən, Türkiyə Respublikası, İran İslam Respublikası, Gürcüstan, İraq, Rusiya Federasiyası və Birləşmiş Ərəb Əmirlikləri ilə həyata keçirilib.

Qeyd edilib ki, istehlakçıların yüksəkkeyfiyyətli məhsullarla təmin edilməsi üçün xaricdən idxal istiqamətində gətirilən qida məhsulları Naxçıvan Gömrük Ekspertizası İdarəsinin laboratoriya analizlərinə cəlb olunub.

Komitənin Hüquqpozmalara qarşı mübarizə şöbəsinin rəisi, gömrük xidməti polkovnik-leytenantı Anar Hacıyev bildirib ki, cari ilin birinci yarısında hüquqpozma hallarının qarşısının alınması istiqamətində gömrük orqanları tərəfindən bir sıra tədbirlər görülüb. Gömrük qaydalarının pozulmasına görə inzibati qaydada 568 icraat aparılıb və 30 min manata yaxın cərimə ödənişi təmin olunub.

Kollegiya iclasında cari ilin birinci yarısında gömrük orqanlarında həyata keçirilən audit yoxlamalarının nəticələri müzakirə olunub və "Naxçıvanterminalkompleks" Birliyinin yarımillik fəaliyyətinə dair hesabat dinlənilib.

Kollegiya iclasına komitə sədri Asəf Məmmədov yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

* * *



Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində 2017-ci ilin birinci yarımilində cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə polis orqanlarının fəaliyyətinin nəticələri ilə bağlı keçirilən kollegiya iclasını daxili işlər nazirinin müavini, polis general-mayoru Səbuhi Novruzov açıb. Nazirlik Katibliyinin rəisi, polis polkovniki Yusif Həsənov hesabat məruzəsi ilə çıxış edib.

Bildirilib ki, hesabat dövründə iqtisadi sahədə, ictimai təhlükə və ictimai qayda əleyhinə, insan alveri və korrupsiya ilə bağlı heç bir cinayət faktı qeydə alınmayıb.

Yusif Həsənov deyib ki, bəhs olunan dövrdə 5 yol-nəqliyyat hadisəsi baş verib.

Məruzədə elektrik enerjisindən və təbii qazdan qanunsuz istifadənin qarşısının alınması, vətəndaşların şəxsiyyəti təsdiq edən sənədlərlə təmin edilməsi, insan hüquqlarının qorunması, müasir tələblərə cavab verən kadr potensialının formalaşdırılması, yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, şəxsi heyət arasında mənəvi-psixoloji durumun daha da möhkəmləndirilməsi, səyyar xidmətin təkmilləşdirilməsi və başqa istiqamətlərdə görülmüş və görüləcək işlərdən danışılıb.

Məruzə ətrafında çıxışlar olub.

Kollegiya iclasında daxili işlər nazirinin müavini, polis general-mayoru Səbuhi Novruzov bəhs olunan dövr ərzində qazanılan uğurlardan söhbət açıb, bununla yanaşı, işdə buraxılan nöqsanları ətraflı təhlil edib, bu nöqsanların tezliklə aradan qaldırılmasını qarşıda duran başlıca vəzifə kimi kollegiya iştirakçılarının nəzərinə çatdırıb, gələcəkdə həyata keçiriləcək tədbirlərdən danışıb. Səbuhi Novruzov ölkəmizdə reallaşdırılan uğurlu siyasətin, davamlı iqtisadi yüksəlişin nəticəsi olaraq muxtar respublika daxili işlər orqanlarının fəaliyyətində 2017-ci ilin 6 ayında görülən işləri dəyərləndirib.

Vurğulanıb ki, 2017-ci ilin ikinci yarısında da Naxçıvanın cinayətsiz region prinsipi qorunacaq.

Diqqətə çatdırılıb ki, daxili işlər orqanları yaradılan şəraitdən istifadə edərək maarifləndirmə-profilaktika tədbirlərini düzgün təşkil etməli, nizam-intizamı möhkəmləndirməli, ictimai asayişin və sabitliyin qorunması üçün səylə çalışmalı və müsbət nəticələr qazanmalıdırlar.

Sonra kollegiyanın qərar layihəsi oxunub.

**✍ Muxtar MƏMMƏDOV**

# Cari ilin birinci yarısının yekunları müzakirə edilib, qarşıda duran vəzifələr müəyyənləşdirilib



*Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyində keçirilən kollegiya iclasını muxtar respublika vergilər naziri, baş vergi xidməti müşaviri Azər Nağıyev açaraq məruzə ilə çıxış edib.*

Bildirilib ki, 2017-ci ilin birinci yarımilində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyi üzrə müəyyən olunmuş 27 milyon 579 min 900 manat proqnoza qarşı büdcəyə 29 milyon 426 min 800 manat vəsait daxil olub, proqnoz 106,7 faiz icra edilib ki, bu da 2016-cı ilin müvafiq dövrü ilə müqayisədə 714 min 800 manat və yaxud 2,5 faiz çoxdur.

Özəl sektordan vergi daxilolmaları 2016-cı ilin birinci yarımili ilə müqayisədə Ordubad rayonu üzrə 3 dəfə, Culfa rayonu üzrə 2 dəfə, Şahbuz rayonu üzrə 4,7 faiz, Kəngərli rayonu üzrə 2,9 dəfə və Sədərək rayonu üzrə 5,6 faiz artıb.

Qeyd olunub ki, POS-terminalların tətbiqinin genişləndirilməsi vergi orqanlarının qarşısında qoyulan ümdə tələblərdəndir. 1 iyul 2017-ci il tarixə muxtar respublikada fəaliyyət göstərən ticarət obyektlərində 1250 POS-terminal quraşdırılıb ki, bunun da 48-i 2017-ci ilin birinci yarımilinin payına düşür. Bundan əlavə, Vergilər Nazirliyinin və yerli vergi orqanlarının qeydiyyat strukturları tərəfindən "bir pəncərə" qeydiyyat sistemi vasitəsilə hesabat dövrü ərzində 24 kommersiya hüquqi şəxs dövlət qeydiyyatına və 1160 fiziki şəxs sahibkarlıq uçotuna alınıb. Qeydiyyata alınan sahibkarlıq subyektlərinin 71,7 faizi muxtar respublikanın rayonlarının payına düşür ki, bu da muxtar respublikada kiçik sahibkarlığın inkişafının göstəricisidir.

Naxçıvan Muxtar Respublikası vergilər nazirinin müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov çıxışında qeyd edib ki, cari ilin ilk 6 ayında muxtar respublika üzrə əhali ilə nağd pul hesablaşmaları aparan 1700 obyektdən 1689-na nəzarət-kassa aparatı quraşdırılması təmin edilib ki, bu da nəzarət-kassa aparatı quraşdırılmalı olan obyektlərin 99,3 faizini təşkil edir. Lakin buna baxmayaraq, vergi ödəyicilərinin obyektlərində aparılan müşahidələr göstərir ki, nəzarət-kassa aparatları əksər hallarda vergi ödəyiciləri tərəfindən işlədilmir, müştərilərə çek verilmir, bu da təbii ki, vergidən yayınmağa şərait yaradır.

Əmək müqavilələrinin bağlanması və əməkhaqlarının leqallaşdırılması istiqamətində vergi orqanlarının üzərinə düşən vəzifələrin icrasından danışan nazir müavini bildirib ki, 251 vergi ödəyicisi üzrə 236 nəfərlə yeni əmək müqaviləsinin bağlanması təmin edilib və 752 əmək müqaviləsində əməkhaqlarının real şəkildə göstərilməsinə nail olunub.

Vurğulanıb ki, nağdsız ödənişlərin həcminin artırılması məqsədilə hər 6 ayda bir dəfə "Nağdsız ödəyin, hədiyyə qazanın" adlı həvəsləndirici tədbir cari ilin birinci yarısında da davam etdirilib, hesabat dövründə nağdsız hesablaşmalardan istifadə edərək 400 manatdan yuxarı ödəniş aparan 232 vətəndaşa 15 min manat məbləğində müxtəlif məişət əşyaları təqdim edilib.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının vergilər naziri Azər Nağıyev yekun vurub.

✍ **Səbuhi HƏSƏNOV**

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyində 2017-ci ilin birinci yarısının yekunları və qarşıda duran vəzifələrə həsr olunan kollegiya iclası keçirilib.***



İclasda rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov məruzə edərək bildirib ki, bəhs olunan dövrdə plan tapşırıqlara 107 faiz əməl olunub, tarif gəliri ƏDV-siz 4 milyon 357 min 705 manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 256 min 132 manat çoxdur. Bu il yeni telefon xətlərinin çəkilişi və təmir işləri üçün alınan 188 min 733 metr müxtəlif tutumlu fiziki və 71 min 861 metr fiber-optik kabel məmulatları muxtar respublikaya gətirilib. Ümumilikdə, birinci yarımil ərzində 18 min 705 metr fiber-optik kabel xəttinin tikintisi həyata keçirilib.

Qeyd edilib ki, hesabat dövründə 1297 ədəd telefon nömrəsi istismara verilib. Genişzolaqlı Asinxron Rəqəmli Abunəçi xətti texnologiyası vasitəsilə 2 min 46 yeni abunəçi internetlə təmin olunub. Kompüter kursları üzrə təhsil almaq üçün 248 dinləyici olmaqla, 20 ümumi və 76 fərdi qrup yaradılıb.

Bəhs olunan dövrdə "Naxçıvanpoçt" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən 14 milyon 601 min 4 manat vəsait toplanıb.

Çin Xalq Respublikasının "Huawei" şirkəti tərəfindən "Naxçıvan" Universitetində "Gələcəyin İKT sahəsindəki toxumları" adlı ikinci layihə həyata keçirilib. Seçilmiş 12 tələbə iyul ayının 13-25 tarixlərində "Huawei" şirkətinin təşkil etdiyi yay təlimlərində iştirak edib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə yuxarıda qeyd olunan uğurlarla yanaşı, nöqsanlara da yol verilib. Xüsusilə xətt təsərrüfatındakı nöqsanlar və poçt sahəsində mövcud texniki imkanlardan səmərəli istifadə olunmaması ilə bağlı birinci rübün sonunda qeyd edilən iradlardan sonra bu nöqsanların aradan qaldırılması üçün lazımi tədbirlər görülüb. İlin növbəti hissəsində görülən işlərin keyfiyyətinə və normativə uyğun icra olunmasına diqqət daha da artırılmalıdır.

İclasda Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin İqtisadiyyat və mühasibat uçotu şöbəsinin rəisi Vaqif Səfərovun, Telekommunikasiya şöbəsinin rəisi Vidadi Naibovun, İnternet və Yeni Texnologiyaların Tədrisi Mərkəzinin direktoru Vüqar Rəsulovun, "Naxçıvanpoçt" MMC-nin direktoru İlqar Sadiqovun, Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzinin rəis əvəzi Elşən Fətullayevin, Ümumi işlər və kadrlar sektorunun müdiri Asif İsayevin, rabitə və yeni texnologiyalar nazirinin müavini Əli Mikayılovun çıxışları olub.

İclasa rabitə və yeni texnologiyalar naziri Rövşən Məmmədov yekun vurub.

✍ **Nail ƏSGƏROV**

* * *

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin kollegiya iclasını iqtisadiyyat naziri Famil Seyidov açaraq bildirib ki, 2017-ci il 25 iyul tarixdə beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında qarşıya qoyulmuş mühüm vəzifələrin uğurla icrası üçün gələcəkdə daha səmərəli fəaliyyət göstərmək tələb olunur.



Qeyd olunub ki, 2017-ci ilin ötən dövrü ərzində iqtisadi fəaliyyətin müxtəlif sahələri üzrə 11 layihənin maliyyələşdirilməsinə 336 min manat həcmində güzəştli kreditlər verilib, 8-i özəl investisiya olmaqla, 18 istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb, ümumilikdə, 183 yeni iş yeri yaradılıb.

Nazir bildirib ki, muxtar respublikanın təbii sərvətlərindən səmərəli istifadə edilməsi, xüsusən kəndlərdə dayanıqlı istehsal sahələrinin yaradılması və məşğulluq səviyyəsinin yüksəldilməsi məqsədilə 2017-ci ilin 6 ayı ərzində dövlət və özəl investisiya hesabına 12 yeni istehsal və xidmət sahəsi yaradılıb.

Muxtar respublikamızda yüksək məhsuldarlığa malik keyfiyyətli toxum növlərinin, xüsusilə yerli genofonda daxil olan növlərin yetişdirilməsi, toplanması və fermerlərə satışının təşkili diqqət mərkəzindədir.

Əhalinin ərzaq məhsulları ilə təmin olunması istiqamətində ailə təsərrüfatlarının rolundan bəhs edən nazir bildirib ki, ötən dövr ərzində belə təsərrüfatların fəaliyyətini dəstəkləmək məqsədilə 201 çoxsahəli təsərrüfatda maarifləndirici tədbirlər həyata keçirilib, 9 ailə təsərrüfatına 195 min 700 manat dövlət maliyyə dəstəyi göstərilib. Bu sahədə verilmiş tapşırıqların tam icrası məqsədilə qarşıdakı dövrdə muxtar respublikanın bütün rayonlarının imkanlarını təhlil etməklə çoxsahəli ailə təsərrüfatlarının formalaşdırılması istiqamətində layihələrin hazırlanması davam etdiriləcəkdir.

Muxtar respublikanın ixrac potensialının genişləndirilməsi ilə bağlı məsələlərə toxunan nazir vurğulayıb ki, ötən il investisiya və ixracın təşviq edilməsi sahəsində imzalanmış fərman və sərəncamlar muxtar respublikanın iqtisadi inkişafına, xarici iqtisadi əlaqələrin genişləndirilməsində yeni mərhələnin başlanğıcını qoyub. Belə ki, bu gün muxtar respublikada istehsal olunan ixracyönümlü məhsullar Türkiyə, Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri, İran və İraq kimi ölkələrə ixrac olunur. İxrac edilən əmtəələr arasında ərzaq, tikinti, mebel, yüngül sənaye məhsulları üstünlük təşkil edir. Muxtar respublikada yaradılmış əlverişli biznes mühitinin təşviqi, iş adamlarının xarici ölkə sahibkarları ilə qarşılıqlı əlaqələrinin daha da yaxşılaşdırılması məqsədilə ölkə daxilində və xaricdə keçirilən 14 biznes-forum və beynəlxalq sərgidə 73 sahibkarın, Çin Xalq Respublikasında keçirilən seminarlarda nazirliyin 3 əməkdaşının iştirakı təmin edilib.

Sonra məruzə ətrafında çıxışlar olub.

✍ **Əli CABBAROV**

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyində keçirilən, bu ilin birinci yarısının yekunlarına həsr olunmuş kollegiya iclasını giriş sözü ilə gənclər və idman naziri Azad Cabbarov açaraq məruzə edib.***



Bildirilib ki, ötən dövr ərzində nazirliyin keçirdiyi 226 tədbirdən 75-i gənclərlə iş, 151-i isə kütləvi bədən tərbiyəsi və idman sahəsini əhatə edib.

Diqqətə çatdırılıb ki, bu ilin ötən dövrü ərzində ayrı-ayrı növlər üzrə muxtar respublika idmançılarının respublika və beynəlxalq miqyaslı yarışlarda iştirakı təmin edilib, idmançılarımız dünya çempionatında 1, Asiya çempionatında 2, İslam Həmrəyliyi Oyunlarında 1, beynəlxalq turnirlərdə 51, Azərbaycan birinciliklərində 85 medal olmaqla, cəmi 140 medal qazanıblar.

Bildirilib ki, ümummilli liderimizin xatirəsinə həsr olunmuş "Heydər Əliyev kuboku" uğrunda futbol, boks, sərbəst güləş üzrə Naxçıvan Muxtar Respublika birincilikləri, karate-do üzrə muxtar respublika açıq çempionatı, şahmat üzrə "Naxçıvan-2017" Beynəlxalq Festivalı, pauerliftinq üzrə beynəlxalq turnir, futbol üzrə Azərbaycan kubokunun final oyunu, kross qaçışı, kikboksinq, basketbol, peyntbol, paralimpiya üzrə Naxçıvan Muxtar Respublika turnirləri, peşəkarlararası kəmər müdafiəsi uğrunda döyüşlər, yeniyetmələr arasında boks üzrə "Heydər Əliyev kuboku-2017" Beynəlxalq turniri keçirilib.

Sonra məruzə ətrafında Naxçıvan şəhər, Şərur, Ordubad, Kəngərli, Sədərək Rayon Gənclər və İdman idarələrinin rəisləri Xəyal Qurbanov, Ramil Dadaşov, Əbülfəz Əliyev, Vüsal Hüseynov, Etibar Əliyev çıxış ediblər.

Kollegiya iclasına Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov yekun vurub.

✍ **Ceyhun MƏMMƏDOV**

* * *

Naxçıvan Muxtar Respublikası arxiv orqanlarının 2017-ci ilin birinci yarısında gördükləri işlərin yekunları ilə bağlı keçirilən kollegiya iclasında Dövlət Arxiv İdarəsinin rəisi Mehman Məmmədov çıxış edərək bildirib ki, idarənin səmərəli fəaliyyəti üçün yüksək iş şəraiti yaradılıb, sənədlərin mühafizə edildiyi anbarlar müasir arxiv avadanlıqları ilə təchiz edilib, inzibati binada təhlükəsizlik sistemi quraşdırılıb.



Qeyd edilib ki, Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin cari ilin iş planında kağız əsaslı sənədlərin bərpa edilməsi 5 min 500 vərəqə nəzərdə tutulub, bu ilin birinci yarısında 2 min 917 vərəqə bərpa olunaraq plan 53 faiz yerinə yetirilib. Sənədlərin tikilməsi və cildlənməsi sahəsi üzrə illik plan 4 min 500 saxlama vahidinə qarşı cari ilin birinci yarısında 5 min 314 saxlama vahidi karton qutulara yığılaraq illik plana 118 faiz əməl olunub. İdarə, müəssisə və təşkilatlarda arxivlərin və kargüzarlıqda sənədlərin təşkilinin yoxlanılması üzrə illik planda nəzərdə tutulmuş 20 kompleks və 60 tematik yoxlamaya qarşı cari ilin birinci yarısında 10 təşkilatda kompleks, 38 təşkilatda tematik yoxlama aparılıb, yoxlamanın nəticələri tərtib edilən aktlarda öz əksini tapıb.

Vurğulanıb ki, rayonlarda fəaliyyət göstərən Dövlət arxivlərinin illik iş planında nəzərdə tutulan pasportlaşma işləri, həmçinin Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin iş planında nəzərdə tutulan kağız əsaslı sənədlərin mövcudluğu və vəziyyətinin yoxlanılması, sənədlərin elektron daşıyıcılara köçürülməsi, onların təsvirinin aparılması, siyahıların təkmilləşdirilməsi və yenidən işlənməsi maddələri istisna olmaqla, demək olar ki, cari ilin birinci yarısında yüksək göstəricilərlə yerinə yetirilib.

Məruzə ətrafında müzakirələrdə Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin direktoru Zülfiyyə İsmayılova, Şərur Rayon Dövlət Arxivinin müdiri Ədalət İmanov, Ordubad Rayon Dövlət Arxivinin müdiri Əkbər Babazadə çıxış edərək cari ildə görülən işlər və qarşıda duran vəzifələr barədə danışıblar.

✍ **Fatma BABAYEVA**

***Naxçıvanın özünəməxsus, zəngin memarlıq ənənələri var. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikada böyükhəcmli tikinti-quruculuq tədbirləri həyata keçirilib və bu tədbirlər indi də uğurla davam etdirilir. Muxtar respublikanın şəhər və rayonları ilə yanaşı, ən ucqar kənd yaşayış məntəqələrində də müasir inzibati binalar, təhsil, səhiyyə, mədəniyyət obyektləri tikilib istifadəyə verilir. Bu gün muxtar respublikada tikilən və ya yenidən qurulan hər bir obyekt özündə zəngin milli ornamentlərlə yanaşı, müasir memarlıq üslubunun özəlliklərini də əks etdirir. Yaddan çıxarmaq olmaz ki, bu günün tikilisi onilliklər sonra tarixi abidəyə çevrilə bilər. Bunun üçün isə tikinti işlərində arxitektura elementlərinə, keyfiyyət amilinə ciddi fikir verilməlidir. Bu baxımdan 2015-ci ildən etibarən muxtar respublikada Memarlar Birliyinin yaradılması böyük əhəmiyyət kəsb edir. Qurumun ötən müddətdəki fəaliyyəti ilə bağlı oxucularımızı məlumatlandırmaq üçün birliyin sədri Heydər Əhmədovla görüşüb həmsöhbət olduq. Onu da qeyd edək ki, Heydər Əhmədov hazırda Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin müəllimidir.***

# Bu gün tikilənlər illər sonra tarixi abidəyə çevriləcək



*– Heydər müəllim, memarlığı şəxsi yaradıcılıq fəaliyyəti kimi qəbul etmək olarmı?*

– Memarlıq bəşəri sənətlər sırasında ikinci yerdə qərarlaşıb. Birinci yer tibb elmlərinə, ikinci yer isə memarlığa məxsusdur. Fərqli cəhətləri olmaqla yanaşı, onları bir oxşar cəhət; hər ikisinin səhvinin bağışlanılmazlığı da birləşdirir. Memarlığın digər yaradıcı sənətlərdən fərqi ondadır ki, o hamıya məxsusdur, hər kəs ondan bəhrələnə bilər. Memarlığın əsas özəlliklərindən biri də cəmiyyətdə baş verən dəyişikliklərə ilkin olaraq reaksiya verməsidir. Yəni cəmiyyətin sosial-iqtisadi, maddi-mənəvi durumu, ideologiyası və sair cəhətlər memarlıq tikililərində öz əksini tapır. Bir xalqın danışıq dilini bilmədən belə, cəmiyyət haqda ilkin təəssürat almaq üçün o ölkənin memarlıq nümunələrinə nəzər salmaq kifayətdir.

*– Birliyin qarşısında duran vəzifələr nədən ibarətdir?*

– İlk olaraq qeyd edim ki, Azərbaycanın ən qədim, ən zəngin tarixə malik olan Naxçıvan torpağında memarlıq baxımından misilsiz nailiyyətlər əldə edilib. Tarixi Nuh dövründən bu günə məlum olan qədim diyarda xalqımızın ən dəyərli inciləri qorunub saxlanılır. Yaxın Şərqdən uzaq Qərbə kimi tanınmış Naxçıvan memarlıq məktəbi tarixi irsə əsaslanaraq bu gün də inkişafdadır və nümunəvi memarlıq əsərləri yaratmaqdadır. Bunun əyani sübutu Naxçıvan Muxtar Respublikasının şəhər və qəsəbələrində inşa edilib xalqın istifadəsinə verilən yeni memarlıq əsərləridir. Bu böyük və xeyirxah işlərin reallaşması Naxçıvan memar və inşaatçılarını dəstəkləyən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun diqqət və qayğısının nəticəsidir. Təsadüfi deyildir ki, Ali Məclisin Sədri Naxçıvan ərazisində şəhərsalma və memarlıq sahələrində böyük inkişafın və uğurların əldə olunmasında göstərdiyi fəaliyyətə görə Azərbaycan Memarlar İttifaqının Fəxri üzvü seçilibdir. Məhz onun təşəbbüsü ilə yaradılan Memarlar Birliyinin vəzifəsi yaradıcılıq konsepsiyalarını formalaşdırmaqdan, muxtar respublikada memarlığın inkişaf strategiyasını dövlət orqanları ilə birlikdə həyata keçirməkdən, memarlıq və şəhərsalma sahəsində qəbul olunmuş normativ aktların icra edilməsinə, tarixi-memarlıq mühitinin mühafizəsinə, muxtar respublika memarlarının peşə vərdişlərinin təkmilləşdirilməsinə yaxından köməklik göstərməkdən, bu prosesdə savadlı kadrların yerləşdirilməsinə önəm verməkdən ibarətdir. Qeyd etmək istərdim ki, təmsil etdiyim qurum muxtar respublika memarlarının könüllü müstəqil yaradıcılıq birliyidir. Hazırda birlik öz ətrafında 60 memarı birləşdirir.

*– Birlik tərəfindən hansı işlər görülür?*

– Qurumumuzda mütəmadi olaraq memarlarla görüşlər keçirilir, memarlıq işləri, layihələrin müzakirəsi həyata keçirilir. Bundan başqa, Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsi tələbələrinin tarixi abidələrimizə ekskursiyaları təşkil olunur, memarlarımız tərəfindən ustad dərsləri keçilir. Bu ixtisas üzrə təhsil alan tələbələrin elmi nəşrlərə olan ehtiyacının ödənilməsi üçün də bir sıra işlər görülüb. Belə ki, dünyanın tanınmış memarlarının kitablarını tərcümə edərək elektron variantda universitet kitabxanasına təhvil vermişik. Bundan başqa, dövlət qurumlarının memar kadrlarla təmin olunmasına da birliyimiz tərəfindən köməklik göstərilir. Memarlıqda günün tələblərindən biri də kompüter üzrə yeni proqramların mənimsənilməsidir. Birliyimiz tərəfindən dünyanın ən müasir proqramları araşdırılır və sonra tələbələrin bu proqramları dərindən öyrənmələrinə şərait yaradılır. Hazırda birliyimizin üzvləri oktyabrın birinci həftəsində keçiriləcək Beynəlxalq Memarlar Gününə hazırlaşır. Həmin gün birliyimiz tərəfindən Əcəmi seyrəngahında sərgi təşkil olunacaq, bu tədbirdə şəhərimizin müasir memarlıq nümunələrinin maketləri nümayiş etdiriləcəkdir.

*– Gələcək planlarınız haqda nə deyə bilərsiniz?*

– Naxçıvan torpağının simasının daha da zənginləşdirilməsində hər bir memarın əməyi olmalıdır. Memarlar Birliyi olaraq məqsədimiz ayrı-ayrılıqda, pərakəndə şəkildə fəaliyyət göstərən memarlıq qüvvələrini birləşdirib muxtar respublikanın sosial-iqtisadi inkişafındakı təxirəsalınmaz işlərə yönəltmək, Naxçıvanda memarlığın inkişafında meydana gəlmiş mütərəqqi ənənələrin və yeniliyin aparıcısı rolunda çıxış etməkdir. Əminliklə deyə bilərəm ki, indi muxtar respublikada memarlıq yaradıcılığının mürəkkəb məsələlərini həll edə biləcək mütəxəssislər nəsli yetişib. Çalışacağıq ki, muxtar respublikada şəhər və kəndlərin abadlaşdırılmasında, memarlıq görkəminin formalaşmasında rol oynayaq, yaradıcılıq proseslərini istiqamətləndirək, Əcəmi memarlıq məktəbinin davamı olan müasir Naxçıvan memarlığının inkişafı, tanıdılması istiqamətində səylə çalışaq.

*– Şəhərimizin bədii görkəmi, obrazı haqda bir peşəkar kimi fikrinizi bilmək maraqlı olardı.*

– Memarlıqda ansambl deyilən bir anlayış var. Bütün tikililərin vahid bir obraz çərçivəsində qavranmasına cəhd. Əlbəttə ki, doğma Naxçıvan şəhərinin də siması, sözün müsbət mənasında, dəyişikliyə uğramamış qala bilməzdi. Ancaq son illərin bərpa proseslərinə nəzər salsaq, görərik ki, yeni tikililərin sayının gündən-günə artmasına baxmayaraq, ansamblın qorunmasına xüsusi diqqət yetirilir, tikinti materiallarının seçimində belə, Naxçıvanın ənənəvi simasını hifz etmək üçün səy göstərilir, tarixi binaların “yaddaşı” qorunub saxlanılır. Bu, bütün şəhərlərdə olduğu kimi, memarlıqda da milli və mənəvi dəyərlərimizə hörmət və ehtiramın göstəricisidir. Bu gün biz memarların ən böyük arzusu işğal altında olan torpaqlarımızın azad edilməsi, tayı-bənzəri olmayan, vəhşicəsinə dağıdılan abidələrimizin bərpasında iştirak etmək, şəhərlərdə yerlə yeksan olunan binalara ikinci həyat verməkdir. İnanırıq ki, tez bir zamanda bu arzu da gerçəkliyə çevriləcək.

*– Maraqlı müsahibə üçün sağ olun!*

**✍ Səbuhi HÜSEYNOV**

# İstedadlı qadınların əl işlərindən ibarət sərgi-satışın növbəti ünvanı Babək rayonu olub



***Babək Rayon Mədəniyyət Evində Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Babək Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə istedadlı qadınların əl işlərindən ibarət sərgi-satış təşkil olunub.***

Tədbirdə çıxış edən rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov bildirib ki, muxtar respublikamızda dövlət qadın siyasəti uğurla həyata keçirilir. Qadınlarımız yerli özünüidarəetmə orqanlarında təmsil olunur, təhsil, səhiyyə, mədəniyyət müəssisələrində rəhbər vəzifələrdə fəaliyyət göstərirlər. Bu gün Babək rayonunda təhsil sahəsində çalışanların 58, səhiyyə sahəsində çalışanların 84, mədəniyyət sahəsində çalışanların isə 70 faizini qadınlar təşkil edir. Onların əməyinə dövlətimiz tərəfindən yüksək qiymət verilir, işində fərqlənən qabaqcıl qadınlar müxtəlif mükafat və fəxri adlara layiq görülürlər.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirib ki, artıq 2 ildir, muxtar respublikanın rayonlarında belə sərgilər təşkil olunur.

Vurğulanıb ki, ötən il keçirilən sərgidə də öz istedadları ilə seçilən babəkli qadınlar el sənətinin bir sıra nümunələrini ortaya çıxarıblar. Xalqımızın qədim tarixini, zəngin mədəniyyətini nümayiş etdirən bu cür sərgilər milli dəyərlərimizin yaşadılması, təbliği, istedadlı insanların üzə çıxarılması, yeni sənətkarlar nəslinin yetişməsi baxımından əhəmiyyət daşıyır.

İstedadlı qadınlardan Zeynəb Aslan göstərilən diqqət və qayğıya görə Babək rayonunun qadınları adından minnətdarlıq edib.

Sonda sərgiyə baxış olub. Sərgi-satışda 50 qadının 500-dən çox rəsm və əl işi nümayiş olunur.

**Muxtar RZAZADƏ**

# Elmi-praktik konfrans keçirilib

***Naxçıvan Dövlət Universitetində 1 avqust – Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü münasibətilə elmi-praktik konfrans keçirilib.***

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, xalqın milliliyini, mənəvi dəyərlərini, mədəniyyətini, ədəbiyyatını yaşadan, inkişaf etdirən onun dilidir. Ümummilli liderimiz Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli “Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında” Fərmanına əsasən hər il avqustun 1-i əlamətdar gün kimi qeyd edilir. Ulu öndərin əsasını qoyduğu dövlət dil siyasəti ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Dövlət başçısının müvafiq sərəncamları Azərbaycan dilinə və dilçiliyinə diqqət və qayğının ifadəsi olmaqla, həm də bu sahədə görüləcək mühüm işlərin həyata keçirilməsinə şərait yaradıb.

Jurnalistika və dünya ədəbiyyatı kafedrasının dosenti İman Cəfərli “Molla Nəsrəddin” jurnalı və Azərbaycan dili” mövzusunda məruzə edərək mollanəsrəddinçilərin ana dilinin saflığının qorunması istiqamətində apardığı gərgin mübarizədən danışıb. Qeyd olunub ki, jurnal fəaliyyəti boyu dilimizin saflığı uğrunda mübarizənin önündə yer alıb.

“Dilimiz ali varlığımızdır” mövzusunda məruzə edən Fənlərin tədrisi metodikası və texnologiya müəllimliyi kafedrasının dosenti Mehriban Quliyeva qeyd edib ki, Azərbaycan dili öz saflığını 87 faiz qoruyub saxlayan bir dildir. Məruzədə son dövrlərdə dilimizə keçən söz və ifadələrdən qorunmağın və gənc nəslə öz dilimizin zənginliklərini sevdirməyin vacibliyindən də bəhs olunub.

Konfransda tələbələrin sualları cavablandırılıb.

**Səadət ƏLİYEVA**

***İyulun 28-də Ordubad Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən rayonda sığorta işinin təşkili və qarşıda duran vəzifələr barədə tədbir keçirilib.***

# Ordubad rayonunda sığorta fəaliyyətinin təşkili müzakirə edilib



Tədbiri Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açaraq rayonda sığorta sahəsində görülmüş işlərdən danışıb. Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikanın iqtisadi və sosial həyatında sığorta işinin rolundan bəhs edib. Qeyd olunub ki, ölkəmizdə qüvvədə olan mövcud qanunlara əsasən sığorta xidmətlərindən istifadə edən vətəndaşlar müxtəlif yerlərdə baş verə biləcək gözlənilməz hadisələrdən dəyən maddi zərərlərin ödənilməsinə etibarlı təminat alırlar.

Bildirilib ki, Ordubad rayonu üzrə cari ildə 5016 sığorta müqaviləsi bağlanıb, onlardan 1176-sı avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, 1748-i daşınmaz əmlakın icbari sığortası olub.

Hikmət Əsgərov rayonda daşınmaz əmlakın, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortaları, ev əmlakı və fərdi qəza sığortaları və digər sığorta növləri üzrə görülmüş işlərdən və qarşıda duran vəzifələrdən danışaraq vurğulayıb ki, qanuna əsasən icbari qaydada sığortanın şamil olunduğu bütün obyektlərin sığortası təmin edilməlidir. Son dövrlərdə Ordubad rayonunda sığorta sahəsində görülmüş işlərlə bərabər, vətəndaşlara və sahibkarlara məxsus daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər qalmaqdadır. Bu məqsədlə Ordubad rayonunda fəaliyyət daha da genişləndirilməli və maarifləndirmə işlərinə diqqət artırılmalıdır.

Tədbirdə kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunulub. Bildirilib ki, bu sığorta işi də digər könüllü sığortalar kimi, son nəticədə, insanların rifahının yüksəldilməsinə xidmət edir. Buna görə də əkin sahələrinin, meyvə bağlarının, lizinqə verilən kənd təsərrüfatı texnikalarının, habelə ev heyvanlarının və arı ailələrinin sığortalanması məqsədilə ordubadlı fermer və torpaq mülkiyyətçiləri, kənd təsərrüfatı texnikaları sahibləri arasında maarifləndirici işlər aparılmalıdır.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Tədbirə Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov yekun vurub.

**✍ Əli CABBAROV**

***Şərurun qədim tarixə və mədəniyyətə malik olmasını onun daş abidələri, arxeoloji maddi-mədəniyyət nümunələri ilə yanaşı, həm də mədəniyyətimizin incisi və ən qədim növü sayılan yallıları da təsdiq edir. Bu mənada, yallını Şərurun qədim rəmzi adlandıranlar da yanılmırlar. Oğuz ellərinin həyat tərzi, məişəti, dünyabaxışı "Kitabi-Dədə Qorqud" dastanlarında sözlə, fikirlə, yallılarda isə ritmik hərəkətlərlə ifadə olunub. Hər bir yallı növü də xüsusi məna və məzmun daşıyıb. Xalqımızın yaşam tərzini, adət-ənənəsini, mübarizliyini, qorxmazlığını, həmişə haqq-ədalətə və sülhə can atmasını özündə yaşadıb.***

*Xalq yaradıcılığı*

# Şərur yallısı milli mədəniyyətimizin güzgüsüdür



Tədqiqatçıların fikrincə, yallı 8-10 min il bundan əvvəl yaranıb. Heç şübhəsiz ki, onun yaranması yazılı mədəniyyətin formalaşmasından əvvəlki dövrlərə təsadüf edib. İlkin yallılar oda, atəşə pərəstiş dövründə yaranıb, od-ocaq ətrafında toplanan mərasimlərdən ibarət olub. Bu deyilənləri tariximizin ən böyük daş kitabələri olan Qobustan və Gəmiqaya qayaüstü rəsmlərində də görmək olur. Xalqımızın ümummilli lideri Heydər Əliyev deyirdi: *"Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz".*

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov isə Şərur yallısını Naxçıvanın mənəvi emblemi adlandırır. Bu folklor rəqsləri qədim torpağın Azərbaycançılıq möhürüdür.

Şərur yallılarının yaşadılmasında, qorunmasında və təbliğində "Şərur" Xalq Yallı Ansamblının da böyük rolu var. Ansamblın əsası 1924-cü ildə qoyulub. 30-cu illərin ortalarından "Staxanov kolxozçularının rəqs ansamblı" adı ilə fəaliyyətə başlayıb. Ölkəmizdə mədəniyyətə, onun ayrılmaz qolu olan incəsənətə göstərilən qayğı və diqqətdən bu kollektivə də pay düşüb. Ötən əsrin 70-ci illərindən "Şərur yallısı" el-el, oba-oba gəzib, dolaşıb. Kollektiv dünyanın bir çox ölkələrində keçirilən festivallarda iştirak edərək diplom və mükafatlara layiq görülüb. 1970-ci ildə Bakı şəhərində keçirilən "Naxçıvan mədəniyyəti günləri"ndə muxtar respublikanı təmsil edən kollektivlər sırasında bu ansambl da olub. Respublika sarayındakı yekun tədbirdə iştirak edən ulu öndər Heydər Əliyev konsertdən sonra səhnə arxasında ifaçılarla söhbət edərkən bu ansamblın çıxışından razı qaldığını bildirib, tövsiyə və tapşırıqlar verib: *"Yallılar bizim keçmişimiz, bu günümüz, gələcəyimizdir... Yallını qoruyub saxlayın. Bu, Naxçıvanın tacıdır"*, – deyib.

1972-ci ildə Almaniya Demokratik Respublikasında keçirilən ümumdünya folklor festivalı ansamblın üzvləri üçün yaddaqalan olub. Ansamblı beynəlxalq əhəmiyyətli tədbirə məşhur rəqqasə, Azərbaycan Respublikasının Xalq artisti Əminə Dilbazi hazırlayıb. O, öz xatirələrində yazıb: "Məndən soruşdular: SSRİ-ni Almaniyada hansı folklor kollektivi təmsil edə bilər? Qərara gəldik ki, Naxçıvan yallısını aparaq. Mən bilirdim ki, bizim yallı mənbəyimiz Naxçıvanda, Şərur torpağındadır... Biz Almaniyaya elə bir folklor nümunəsi aparmalıydıq ki, üstündə xalqımızın möhürü olsun. Bu, Şərur yallısı idi..." Uğurlu çıxışlarına görə ansambl festivalın laureatı adını qazanır. Həmin il ansambl Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanı ilə təltif olunur, kollektivə "Xalq Yallı Ansamblı" statusu verilir. Məhz o dövrdə ümumittifaq televiziyası tərəfindən "Şərur yallısı" sənədli filmi çəkilir.

Müstəqillik dövründə isə ansamblın fəaliyyətində canlanma 90-cı illərin ikinci yarısından başlanıb. Muxtar respublikada həyata keçirilən yeni quruculuq xətti mədəniyyət sahələrini də öz ağuşuna alıb. İncəsənət kollektivlərinin fəaliyyəti gücləndirilib. Bu qayğı sayəsində də "Şərur" Xalq Yallı Ansamblı 1997-ci ildə Türkiyənin İskəndərun şəhərində folklor bayramında uğurla çıxış edib. 1998-ci ildə Bayburt şəhərində keçirilən "Dədə Qorqud" festivalında da onlar yüksək mükafata layiq görülüblər. 2001-ci ildə Misirin paytaxtı Qahirədə keçirilən on ikinci beynəlxalq folklor festivalı da yaddaqalan olub.

Ansamblın rəhbəri, Şərur yallılarının mahir ifaçısı, Azərbaycanın Əməkdar mədəniyyət işçisi Kimya Babayevanın dediklərindən: "Avropanın, Asiyanın və Afrikanın bir çox ölkələrini gəzmişik. Həmişə bizim yallılara böyük maraq göstərilib. Elə bir səfər olmayıb ki, oradan əliboş qayıdaq. Misirdə keçirilən folklor festivalında da Şərur yallısı bütün salonu məftun etdi. 40-dan çox ölkənin folklor rəqs ansamblının dəvət olunduğu həmin tədbirdə "Qızıl açar"a layiq görüldük".

Kollektivin üzvləri 2002-ci ilin iyun ayında İstanbulun böyük rayonlarından biri olan Pendikdə keçirilən mədəniyyət və incəsənət bayramında öz ustalıqlarını bir daha nümayiş etdiriblər. Onlar 2010-cu ilin iyul ayının əvvəllərində Ərdahan vilayətində "Atatürkün izində, kölgəsində Damal şənlikləri" festivalında da müvəffəqiyyətlə iştirak ediblər.

Ansamblın bədii rəhbəri, Prezident mükafatçısı Əfsər Novruzov deyir ki, biz kəndbəkənd, oba-oba gəzir, qədim rəqslərimizi, yallılarımızı toplayır, öyrənir, repertuarımızı daha da zənginləşdiririk. Ömürlərinin ahıl çağını yaşayan insanlarda xeyli bilgilər var. Onların köməyi ilə unudulmaqda olan 4-5 yallı bərpa edilib. Hazırda isə repertuarımızda ifa tərzi ilə bir-birindən fərqlənən 40-dan çox yallı və rəqs özünə yer tutub.

Ansamblın 50-yə yaxın üzvü var. Onların bir çoxu istedad və qabiliyyətləri ilə ölkə miqyasında yaxşı tanınıblar. Azərbaycan milli musiqi mədəniyyətinin, folklorun inkişafında göstərdiyi xidmətlərə görə ansamblın üzvlərindən Səttar Əhmədov, Kimya Babayeva və Kamal Babayev "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülüblər.

Yallının beşiyi sayılan Şərurda indi 3 yallı ansamblı fəaliyyət göstərir. Bu ansambllar üzvlərinin yaş fərqinə görə seçilir: "Şərur qönçələri" uşaq yallı ansamblı, gənclərə və orta nəslə mənsub olan "Şərur" Xalq Yallı Ansamblı və yaşlılardan ibarət "Nurani" ansamblı. Çərçiboğan mədəniyyət evinin nəzdində fəaliyyət göstərən "Nurani" ansamblı öz ətrafında 60-70 yaşlı ifaçıları toplayıb. Onları vahid kollektiv şəklində birləşdirən qüvvə el sənətimizə olan sonsuz məhəbbət və ehtiramlarıdır.

"Şərur qönçələri" uşaq yallı ansamblının bədii rəhbəri Səttar Əhmədov deyir ki, ansambl 1998-ci ildə yaradılıb. Rayon Mədəniyyət Evi nəzdində fəaliyyət göstərən ansamblın 34 üzvü var. 2000-ci ildə ansambl Türkiyənin Ankara şəhərində keçirilən 23 aprel – Milli Suverenlik və Uşaq Bayramı Günündə uğurla çıxış edərək diplom və mükafatlara layiq görülüb. 2007-ci ildə Qars şəhərində keçirilən uşaq bayramında da onlar birincilik qazanıblar. "Şərur qönçələri" 2008-ci ildə ümummilli lider Heydər Əliyevin anadan olmasının 85 illik yubileyi münasibətilə Bakı şəhərində keçirilən uşaq rəqs kollektivlərinin birinci respublika festivalının qalibləri cərgəsində olub, müvəffəqiyyətli çıxışlarına görə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin diplom və pul mükafatına layiq görülüb.

Kollektiv 2010-cu ilin avqust ayında Türkdilli xalqların mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq təşkilatı TÜRKSOY-un dəstəyi və Türkiyənin Ağrı şəhər valiliyinin təşkilatçılığı ilə keçirilən "Ağrı mədəniyyət və sənət günləri" tədbirindən də mükafatla qayıdıb. Gənc istedadlar üçün ən əlamətdar və yaddaqalan hadisə isə Naxçıvan şəhərində Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısı şərəfinə Heydər Əliyev Sarayındakı çıxışıdır. "Şərur qönçələri" uşaq yallı ansamblı 2008-2009-cu illərdə Bakıda keçirilən Gənclərin birinci ümumittifaq rəqs festivalında iştirak edib. Bu festivalda da mükafata layiq görülüb.

*Yallı təkcə musiqi və rəqs növü deyil. O, qədim oğuz-türk tarixinin başlıca möhürlərindən biri olmaqla yanaşı, xalqımızın həm də bugünkü varlığıdır. Məhz bu mənəvi sərvətlərimiz ilə milli varlığımızı qoruyub saxlaya bilirik. Elə bu baxımdan da muxtar respublikada yallıların yaşadılması, tədqiqi və təbliği istiqamətində həyata keçirilən tədbirlər hər kəs tərəfindən rəğbətlə qarşılanır.*

**Ramiyyə ƏKBƏROVA**

# İlkin tibbi yardımın təşkilinə dair elmi-praktik seminar



***Naxçıvan Muxtar Respublika Xəstəxanasında "İlkin tibbi yardım" mövzusunda elmi-praktik seminar keçirilib.***

Muxtar respublika səhiyyə nazirinin müavini Samrat Gəncəyeva səhiyyə sisteminə göstərilən dövlət qayğısı nəticəsində bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirildiyini, infrastrukturun yenidən qurulduğunu, bunun da təxirəsalınmaz tibbi yardım sahəsində mühüm irəliləyişlərə şərait yaratdığını bildirib. Qeyd edib ki, ilkin tibbi yardım hər hansı bir qəza və ya həyati təhlükə yaradan bir vəziyyətdə həkimlərin köməyi təmin edilənə qədər insan həyatının xilas olunması və ya onun vəziyyətinin daha da pisləşməsinin qarşısının alınması məqsədilə hadisə yerində mövcud imkanlarla edilən ilk müdaxilədir. Hər hansı zədə almış və ya qəfildən xəstələnmiş şəxsin həyatının xilas edilməsində və sağlamlığının bərpa olunmasında xəstəyə göstərilmiş ilk həkiməqədər yardımın böyük əhəmiyyəti vardır. Hadisə yerində bir sıra sadə tədbirləri yubanmadan həyata keçirməklə ağır fəsadların və xoşagəlməz nəticələrin qarşısını almaq mümkündür. İlk tibbi yardım zədələnmə yerində təcili göstərilməlidir. Bu yardımın məqsədi həyati təhlükəni ortadan qaldırmaq, həyati funksiyaların davam etdirilməsini təmin etmək, xəstənin vəziyyətinin pisləşməsinə imkan verməmək, yaxşılaşmanı asanlaşdırmaqdan ibarətdir.

Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim-anestezioloq-reanimotoloqu Fəxriyyə Məmmədova terminal vəziyyət, onun dəyərləndirilməsi, ilkin intensiv reanimasiya tədbirləri, ürək masajı, süni tənəffüsvermə, defibrilyasiyaya göstərişlər və onların aparılması qaydaları barədə məlumat verib.

Sonra xəstəxananın həkim-travmatoloqu Adil Məmmədov "Yaralanmalar zamanı ilkin tibbi yardım və sarğının qoyulma qaydaları", Naxçıvan Diaqnostika-Müalicə Mərkəzinin həkim-anestezioloq-reanimotoloqu Habil Vəliyev "Qanaxmalar, onların differensasiyası, qanaxmalar zamanı ilkin tibbi yardım" mövzularında məruzələr ediblər.

İlkin tibbi yardım qaydaları mulyaj üzərində aparılıb, videogörüntülərlə müşayiət olunub. Sonra dinləyiciləri maraqlandıran suallar cavablandırılıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin Tibbi yardımın təşkili şöbəsinin müdiri Süleyman Cəfərov seminara yekun vurub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***Bakı şəhərində Qarışıq Döyüş Növləri üzrə beynəlxalq turnir keçirilib. Turnirdə Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirmələri də mübarizə aparıblar.***

# İdmançılarımız beynəlxalq turnirdən medallarla qayıdıblar

Beynəlxalq turnir iki versiya – Braziliya jiu-jitsu və jiu-jitsu növləri üzrə təşkil olunub. Yarışda idmançılarımız 4 medal qazanıblar ki, bunların da üçü qızıldır. Belə ki, jiu-jitsu versiyası üzrə 45 kiloqram çəki dərəcəsində mübarizə aparan Fərid Məhərrəmov turnirin qalibi olub. Bu versiyada 73 kiloqram çəki dərəcəsində Tağı Məmmədov bürünc medal qazanıb. İdmançımız həmçinin Braziliya jiu-jitsu versiyasında da mübarizə aparıb və beynəlxalq turnirin qalibi olub. Komandamıza digər qızıl medalı 69 kiloqram çəki dərəcəsində Rəzzaq Əliyev qazandırıb.

Sonda qalib idmançılarımıza təşkilatçılar tərəfindən diplom və medallar təqdim olunub.

# Yoldaşlıq görüşündə Culfa basketbolçuları qalib gəliblər

"Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq" devizi altında basketbol üzrə yoldaşlıq görüşü keçirilib.

Naxçıvan Muxtar Respublikası Basketbol Federasiyası, Culfa və Ordubad Rayon Gənclər və İdman idarələrinin birgə təşkil etdiyi görüşdə "Ordubad" və "Culfa" komandaları üz-üzə gəlib. Görüşdən öncə çıxış edən Basketbol Federasiyasının sədr müavini Ənvər Məmmədov bildirib ki, hər il olduğu kimi cari ildə də muxtar respublikanın şəhər və rayonlarında mütəmadi olaraq basketbol yarışları, yoldaşlıq görüşləri keçirilir. Təşkilatçıların məqsədi gənclərimizi zərərli vərdişlərdən uzaq tutmaq və onların asudə vaxtlarını səmərəli keçirmələrini təşkil etməkdir.

Görüşə gəlincə, daha üstün oyun sərgiləyən Culfa basketbolçuları ordubadlı həmkarlarını 45:40 hesabı ilə məğlub ediblər.

Sonda idmançılara təşkilatçılar tərəfindən diplomlar təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Məmmədov Arif Malik oğlunun adına olan 0200430242 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Səbuhi Hüseynov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 613